İPƏK YOLU, No.2, 2018, səh.130-134

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İRSİ MƏTBUATDA

**Namiq Əhmədov**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: tuqay59@mail.ru

**Xülasə.** 1918-ci il mayın 28-də xalqımız müsəlman Şərqində ilk olaraq Cümhuriyyətin – Azərbaycan Xalq Cümuriyyətinin qurulduğunu elan etdi. Lakin təəssüf ki, Cümhuriyyətin ömrü cəmi 23 ay sürdü. Azərbaycan ikinci müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası Cümhuriyyətin varisi elan edildi və Cümhuruyyətin tarixi yenidən öyrənilməyə başlanıldı. Təbii ki, Cümhüriyyət tarixinin öyrənilməsində həm o dövr mətbuatının, həm də çağdaş mətbuatın xidmətləri olduqca böyük olmuşdur. Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin mətbuatda işıqlandırılması məsələləri araşdırılır.

**Açar sözlər**: Azərbaycan Xalq Cümhuriyyəti, İstiqlal bəyannaməsi, mətbuat, milli ideya.

**AZERBAIJAN DEMOCRATIC REPUBLIC IN THE HEREDITARY PRESS**

**Namig Ahmadov**
*Baku State University,Baku, Azerbaijan*

**Abstract.** On May 28, 1918, our people proclaimed the establishment of the first democratic republic in the Muslim East – Azerbaijan Democratic Republic (ADR). Unfortunateely the life of ADR lasted only 23 months. Certainly, both the press of that time and contemporary press have made great contributions in studying the history of the Azerbaijan People's Republic. İn the paper the author analyses the activities of Azerbaijan People's Republic from the mass media point of view.
**Keywords**: Azerbaijan People's Republic, the Declaration of Independence, press, national idea.

**АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА В ПРЕССЕ**

**Намик Ахмедов**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме.** 28 мая 1918 года было провозглащено создание первой демократической республики на мусульманском Востоке - Азербайджанской Демократической Республики (АДР). К несчастью, жизнь АДР продолжалась всего 23 месяца. Разумеется, и пресса того времени, и современная пресса внесли большой вклад в изучение истории Азербайджанской Народной Республики. В статье анализируется деятельность ADR с точки зрения средств массовой информации.
**Ключевые слова**: Азербайджанская Демократическая Республика, Декларация независимости, пресса, национальная идея.

Bütün Şərqdə, eləcə də Türk–İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi olan Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman dünyasında ilk demokratik respublika kimi tarixə düşməklə yanaşı, Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini bərpa etdi, insan hüquq və azadlıqlarının təmin edilməsinə, irqi, milli, dini, sinfi və digər sosial bərabərsizliklərin ləğvinə, əsaslı şərait yaratdı. Siyasi quruluşuna, həyata keçirdiyi demokratik tədbirlərinə, qarşısına qoyduğu məqsəd və vəzifələrin yerinə yetirilməsinə görə də, onun dünyanın ən demokratik qurluşları ilə müqayisə edilməsi

mümkündür. "*Azərbaycan Xalq Cümhuriyyəti Paris sülh konfransının qərarına (1920, 11 yanvar) əsasən müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə (Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Polşa, İsveç, İsveçrə, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və b.) səfirlik və nümayəndəlliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdı. Azərbaycan Xalq Cümhuriyyəti 1920 il aprelin 28-də beynəlxalq hüquq normalanı kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya ilhaq olundu. Sosializm sistemi və Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dağıldıqda, Azərbaycan xalqı Şimali Azərbaycanda dövlət müstəqilliyini yenidən bərpa etdi (1991,18 oktyabr). Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir*" [1, s.11]. Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may günü hazırda Respublika Günü kimi qeyd olunur. Millət vəkili Cavanşir Feyziyevin "Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli oyanışının məntiqi yekunu idi" [5] məqaləsində "...Qafqaz regionunda maraqların kəskin şəkildə toqquşduğu dramatik tarixi zamanda Azərbaycanda cümhuriyyət yaranmasaydı, sonradan ölkəmizin müttəfiq respublika kimi Sovet İttifaqının tərkibinə daxil olması və bu İttifaq da dağılarkən, bir suveren dövlət kimi öz müstəqilliyini bərpa etməsi də mümkün olmayacaqdı" deyiminin tarixi baxımdan nə qədər düzgün qiymət və dəyər olduğunu ayrıca vurğulamaq istərdim.

Amma təəsüflər olsun ki, üzun illər bu şərəfli tarix xalqdan, millətdən gizlədilmiş, yaxud da saxtalaşdırılmış bolşevik təfəkkürünün iddiaları ilə cəmiyyətə təqdim edilmişdir. Tarixci alimlərimizdən Anar İsgəndərovun bu barədə böyük cəsarətlə, ciddi bir ittiham və riqqətlə yazdıqları ibrətamiz bir misal kimi fikirlərimizi bir daha təsdiq edir: "Tarixi həqiqətlərin konyukturçu nöqteyi-nəzərdən, qəsdən təhrif edilməsinin bariz nümunəsi 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixidir. Bu torpağın üstündə addımlayaraq, bu xalqın çörəyini yeyərək, onun maddi-mənəvi dəstəyi ilə ərsəyə yetib elmi mənsəb, şan-şöhrət sahibi olaraq, böyük pafosla özünü taritxçi-alim adlandıran kommunist məddahları adidən də adi həqiqətə–Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra soyqırımının Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildiyinə uzun illər boyu göz yummuş, yaxud xalqımıza qarşı ermənilərin soyqırımı siyasətinin ayrı-ayrı təzahür hallarının mahiyyətcə təhrif olunmuş şəkildə, məsələn, 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Komunnası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsini ən yaxşı halda "Vətəndaş müharibəsi" kimi təqdim etməkdən zərrəcə olsa da, vicdan əzabı çəkməmişlər" [6].

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra tarix xalqımıza təkcə azadlıq adlı əvəzsiz bir neməti yox, həm də şərəf düyacağımız bir tarixi də qaytarmış oldu.

Tarixçi alimlərimizin, tədqiqatçıların üzünə "tam məxfi" və "məxfi" qrifləri ilə bağlı elan edilmiş arxivlərin, fondların açılışı Cümhuriyyət tarixinə dair önəmli və yeni münasibətləri ortaya qoydu. O cümlədən müstəqil Azərbaycan mətbuatının bu barədə yazdıqları və bundan sonra da yazacaqları bu şərəfli tarixin cəmiyyətə çatdırılmasında mühüm rol oynadı.

Təbii ki, mətbuatın bu sahədəki rolunu önə çəkməklə, həm də xalqın və cəmiyyətin qurduğu dövlətin bu sahədə apardığı və həyata keçirdiyi olduqca miqyaslı tədbirlərin nə qədər dəyərli olduğunu və xalqın istəkləri ilə üst-üstə düşdüyünü aydın görürük. Bu məsələdə məşhur mətbuat tədqiqatcımız Şirməmməd Hüseynovun Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsinə münasibətində deyildiyi kimi "Tarix ancaq onu öyrənib imtahan vermək üçün deyil. Müsəlman Şərqində ilk demokratik cümhuriyyəti yaradan şəxsləri, onların yaratdığı ideologiyanı, məfkurəni yeni nəsilə öyrətmək lazımdır. Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi məhz buna xidmət edir" [4].

Təbii ki, Cümhuriyyətin Müstəqil Azərbaycanın varisi elan edilməsi dövlətin tarixinə sahib çıxmasından qaynaqlandığı kimi, həm də bu tarixin öyrənilməsi və cəmiyyətə çatdırılması da dövlət siyasətidir. Buna görə də Cümhuriyyət tarixinin öyrənilməsi və cəmiyyətə catdırılması təkcə tarixçilərin və araşdırmaçıların yox, həm də jurnalistikanın da ümdə vəzifələrindəndir. Umumiyyətlə, jurnalistika bu sahədə nə kimi işlər gördü və ya görməkdədir? sualının ilkin cavabaını vermək üçün ayrı-ayrı təqdimat və təhlilər haqqında danışmadan öncə Azərbaycan Milli Кitabxanasının "Azərbaycan Xalq Cümhuriyyəti – 90" adı ilə nəşr etdiyi bibloqrafik göstəricilərdən [2] götürdüyümüz bəzi statistik məlumatları təqdim etməyi lazım bildik. Bu biblioqrafik göstəricidə ADR-in yaranmasını, fəaliyyətini və süqutunu, onun ictimai-siyasi xadimlərinin həyat və fəaliyyətini əhatə etməklə, 1918-ci ildən 2008-ci ilə qədər olan tarixi dövr haqqında yazılmış elmi işlərin, tədqiqat və məqalələrin əhatəli təqdimatı verilir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu haqqında ilk məlumatlar "Azərbaycan" qəzetinə məxsusdur. 1918-ci ildə bu qəzet 8 məqalə dərc etmişdir. Sonrakı 2 ildə, yəni Cümhuriyyət dövründə 1919 və 1920-ci illərdə müvafiq olaraq, yenə də "Azərbaycan" qəzeti bu mövzuda 22 və 5 məqalə dərc etmişdir. 1919-cu ilə aid olan 22 məqalədən 10-nunun müəlifi Cümhuriyyətin Ukrayna və Türkiyədə səfiri olmuş, görkəmli ədib Yusif Vəzir Çəmənzəminliyə aiddir. Bu məqalələrin hər biri ad müxtəlifliyi ilə fərqlənsələr də, AXC-nin o dövrdəki xarici siyasətinin ən ümdə məsələlərinə həsr edilmişdir. 1920-ci ilin mayında bolşevik təcavüzünün qurbanı olan Cümhuriyyət haqqında 1989-cu ilə kimi mətbuatda demək olar ki, tarixçi alim Zülfəli İbrahimovun 1957-ci ildə dərc olunmuş "Almaniya və Türkiyənin hökmü ilə Zaqafqaziyanın "müstəqil" elan edilməsi: 1917-ci il Oktyabr Sosialist İnqilabından sonra Azərbaycanda milli azadlıq hərəkatının genişlənməsi haqqında" məqaləsini cıxsaq bir dənə də olsun yazıya rast gəlinmir. 1989-cu ildə milli oyanışın başlanması ilə bu məsələ yenidən mətbuatın gündəminə gəlir və "Xəzər",

"Qobustan" jurnallarında, "Kommunist", "Elm" [3], "Ədəbiyyat və incəsənət" [2], "Azərbaycan", "Odlar yurdu" qəzetlərində 10 məqalə dərc edilmişdir. Yeri gəlmişkən bir məsələni də diqqətə çatdırım ki, hələ demokratik hərəkatın ilk vaxtlarında ciddi qınaqlara məruz qalmış "Kommunist" qəzeti "Xəzər", "Qobustan" jurnallarından sonra Cümhuriyyət haqqında məqalə dərc edən ilk rəsmi qəzet olmuşdur. Yeri gəlmişkən bir məsələni də diqqətə çatdırım ki, hələ demokratik hərəkatın ilk vaxtlarında ciddi qınaqlara məruz qalmış "Kommunist" qəzeti "Xəzər", "Qobustan" jurnallarından sonra Cümhuriyyət tarixinin yad edildiyi A2 formatlıq bir səhifədən də xeyli çox, böyük həcmli yazı dərc edən ilk rəsmi qəzet olmuşdur. "1918-1920-ci illər dövrünün bəzi məsələləri: ("Dəyirmi stol" arxasında alimlərimizin söhbəti)" adlandırılan bu yazıda əsas diqqət ADR dövründə kommunist-bolşevik fəaliyyətinin araşdırılmasına önəmli yer verilsə də, şərqdə ilk müsəlman dövləti kimi tarixə düşmüş Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin də öyrənilməsi aşkarlıq dövrünün ümdə vəzifələrindən olması diqqətə çatdırılır. Görkəmli alimlərimizin-Azərbaycan SSR Elmlər Akademiyasını vitse-prezidenti, akademik Cəmil Quliyevin, Azərbaycan SSR Elmlər Akademiyası Azərbaycan Tarixi muzeyinin direktoru, akademik, SSRİ Xalq deputatı Püstəxanım Əzizbəyovanın və başqalarının həmsöhbət olduqu dəyirmi stolda AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Qaraş Mədətovun səsləndirdiyi fikirlər həm tarixi baxımdan, həm də keçmişimizin öyrənilməsi baxımından olduqca cəsarətli və təqdirəlayiq fikirlər kimi dəyərləndirilməlidir: "Tarix ədəbiyyatımızda Azərbaycan Demokratik Respublikasının tarixi hələ öz obyektiv qiymətini tapmamışdır. Məncə, heç kəs bu hökumətin burjua-mülkədar mahiyyətini inkar etmək, onu yaxşı məziyyətlərlə bəzəmək fikrində deyildir. Lakin tarixi həqiqət tələb edir ki, onun yaranmasının, fəaliyyətinin,daxili və xarici siyasətinin şərhində bitərəflilik aradan qaldırılsın, hər şey açıq-aydın, dərindən təhlil edilsin. Azərbaycan Demokratik Respublikasının dövlət strukturu, onun mərkəzdə və yerlərdə orqanlarının, xüsusən parlamentinin tərkibi və fəaliyyəti hərtərəfli işıqlandırılmalıdır. Azərbaycan Demokratik Respublikasının əsl mahiyyətini açmaq üçün onun iqtisadi siyasətini, xarici əlaqələrini, vergi siyasətini, mədəni quruculuq sahəsindəki fəaliyyətini və başqa məsələləri öyrənmək lazımdır" [3].

Azərbaycan Demokratik Respublikasının görkəmli xadimləri haqqında istər Cümhuriyyət, istərsə də sovet dövründə 1988-ci ilə kimi ancaq bir məqalə dərc edilmişdir: 1926-cı ildə "Maarif və mədəniyyət" jurnalında dərc edilmiş Yusif Vəzir Çəmənzəminlinin "Tariximiz haqqında Azərbaycan müəlliflərinin əsərləri" adlı məqalə. 1988-ci ildə "Odlar yurdu" [7] və "Elm" [1] qəzetləri Məmməd Əmin Rəsulzadə, Əlimərdanbəy Topçubaşov, Ceyhun Hacıbəyli, Əliağa Şıxlinski, Nəsib bəy Yusifbəyli, Səmədbəy Mehmandarov haqqında Möhsün Əliyevin 8 məqaləsini dərc edir. 1989-da Cümhuriyyət dövrünün görkəmli xadimləri haqqında 10, 1990-cı ildə 22, 1991-ci ildə 23 məqalə təqdim edilmişdir. Ümumiyyətlə, 1918-2008-ci illər arasında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu haqqında 700-ə yaxın, Azərbaycan Demokratik Respublikasının görkəmli xadimləri haqqında-250-yə yaxın məqalə dərc edilmişdir. Bu siyahıya 150 kitabın, 30-a qədər

elmi işin adlarını, rus dilində çap edilmiş daha 227 məqalənin, 38 kitabın və başqa dillərdə olan 30-a qədər ədəbiyyat nümunələrinin adlarını da əlavə etsək nə qədər böyük və uğurlu işlərin görüldüyünü görürük.

"Kommunist", sonra "Xalq qəzeti", "Azərbaycan", "Бакинский рабочий"," Известия", "Bakı-Baku", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi", "Молодежь Азербайджана", "Вышка", "Açıq söz", "Respublika", "Yeni Azərbaycan", "Müsavat", "Azadlıq", "Xalq cəbhəsi", "Ədəbiyyat və incəsənət" sonralar "Ədəbiyyat qəzeti", "Panorama", "Ayna-Zerkalo", "525-ci qəzet", "Ədalət", "Панорама Азербайджана", "Mədəni-maarif","Azərbaycan kommunisti-Коммунист Азербайджана", "Azərbaycan iqtisadiyyatı", "Azərbaycan məktəbi", "Hərbi bilik" və s. kimi adlarını çəkə bilmədiyimiz onlarca qəzet və jurnallarda dərc edilmiş bu məqalələr Cümhuriyyət tariximizin dəyərli səhifələridir. Amma "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası"nda deyidiyi kimi "Cümhuriyyət tarixinin ayrı-ayrı məsələləri yaxın keçmişdə saxtalaşdırıldığından və qəsdən təhrif olunduğundan, həmçinin bu dövrün bir çox problemləri indiyədək lazımınca araşdırılmadığından ensiklopediyada verilən məqalələrin böyük əksəriyyəti tədqiqat xarakteri daşıyır və yeni elmi baxışı əks etdirir" [1, s.9].

Bu gün də bu tendensiya davam etdirilir, yeni fakt və bilgiləri üzə çıxaran alim və tədqiqatçılarımız bu dəyərli tarixin hər bir incəliyinin açılmasına çalışır, fəaliyyətlərini davam etdirirlər. Çağdaş dövr mətbuatın dərc etdiyi məqalələrin xəritəsinə diqqət edəndə bu mövzuda materialların kifayət qədər çoxluğu, qəzet səhifələrində yer almış məqalələrin mövzu və tədqiqat fərqliliyi Cümhüriyyət tariximizin mətbuatımız üçün də əbədi mövzu olduğunu təsdiqləməkdədir.

**Ədəbiyyat**

1. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, Bakı, 2005, s. 334.
2. Azərbaycan Xalq Cümhuriyyəti - 90: (1918 – 1920): Biblioqrafiya. Tərtib edəni: Ş. Nağıyeva., İxtisas redaktoru K.Tahirov, Bakı, 2008, 256 s.
3. "Dəyirmi stol" arxasında alimlərimizin söhbəti: 1918-1920-ci illər dövrünün bəzi məsələləri "Kommunist" qəzeti, 6 iyun 1989.
4. Hüseynov Ş., 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsini yüksək qiymətləndirirəm. "Xalq qəzeti", 10 yanvar 2018.
5. Feyziyev C., Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli oyanışının məntiqi yekunu idi. Xalq qəzeti, 27 may 2011.
6. İsgəndərov A., Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti, Xalq qəzeti, 9 may 2017.